# BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKROKREDİT AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**
31 dekabr 2025 -ci il tarixində başa çatmış il üzrə

NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

## BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKROKREDİT AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-5 |
| 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 6 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 7 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 8 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 9-10 |
| Maliyyə hesabatları üzrə qeydlər | 11-58 |

# MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
## 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə Bank olmayan Kredit Təşkilatı "Viator Mikrokredit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Cəmiyyət") maliyyə hesabatları ilə bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorların məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2025-cü il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini düzgün şəkildə əks etdirən maliyyə hesabatlarının, Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik, həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün şəkildə əks etdirən, MHBS Mühasibat Uçotu Standartlarına müvafiq mühasibat uçotunun aparılması; və
- Mühasibatlıq sisteminin Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-cü il tarixində başa çatmış il üzrə Cəmiyyətin maliyyə hesabatları 23 aprel 2026-cı il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərliyin adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

23 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

23 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

**Nijat Rahimov**
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

NR ProAudit
AUDIT & CONSULTING FIRM

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

Bank olmayan Kredit Təşkilatı "Viator Mikrokredit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarı və Rəhbərliyinə:

***Rəy***

Biz Bank olmayan Kredit Təşkilatı "Viator Mikrokredit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə əhəmiyyətli uçot prinsiplərinə dair məlumatların qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***Rəy üçün Əsaslar***

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə dair etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Əsas Audit Məsələləri***

Əsas audit məsələləri bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditi zamanı ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər ümumilikdə maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və biz bu məsələlərlə bağlı ayrıca rəy bildirmirik.

*Əsas audit məsələsi*

*Müştərilərə verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərəri ehtiyatı*

31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlər cəmi aktivlərin 90%-ni təşkil edir və müntəzəm olaraq təxmin edilən və istifadə edilən fərziyyələrə qarşı həssas olan ehtimal olunan kredit zərərləri ("EOKZ") üzrə ehtiyat çıxılmaqla qiymətləndirilir.

NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

**Nijat Rahimov**
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi rəhbərlikdən defolt ehtimalını (DE), defolt vəziyyətində riskə məruz qalmanı (DVRMQ) və defolt zamanı yaranan zərəri (DZYZ) müəyyən etmək üçün müşahidə edilən tarixi məlumatları, cari iqtisadi vəziyyəti və mövcud proqnozlaşdırıcı məlumatları nəzərə alaraq əhəmiyyətli mülahizələri və qiymətləndirmə üsullarını tətbiq etməyi tələb edir.

Müştərilərə verilmiş kreditlər üzrə kredit zərəri ehtiyatı Cəmiyyətin maliyyə aktivlərinin qalıqlarının əhəmiyyətli olması və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS üzrə EOKZ məbləğinin hesablanmasının mürəkkəbliyi və mülahizələrə görə əsas audit məsələsi hesab edilir.

*Audit zamanı bu məsələ necə nəzərdən keçirilmişdir?*

Biz "Maliyyə Alətləri" adlı 9 saylı MHBS-nin tələblərinə uyğunluğun EOKZ qiymətləndirməsi ilə bağlı Cəmiyyətin metodologiyası və daxili qaydalarının əsas aspektlərini təhlil etmək üçün maliyyə risklərinin idarə edilməsi üzrə öz mütəxəssislərimizi cəlb etmişik.

Rəhbərlik tərəfindən irəli sürülən peşəkar mülahizə və fərziyyələrin EOKZ ehtimalları üzrə ehtiyatlar ilə uyğunluğunu təhlil etmək üçün biz aşağıdakı prosedurları həyata keçirmişik:

Biz, müştərilərə verilmiş kreditlər üzrə DE, DZYZ və DVRMQ hesablanması, gecikmələrin və kredit ödənişlərinin əsas sistemlərdə vaxtında əks olunması və kreditlərin müvafiq mərhələlərə bölüşdürülməsi üçün məlumatların düzgünlüyünü sınaqdan keçirmişik. Biz daxil edilmiş məlumatları nümunə əsasında dəstəkləyici sənədlərlə uzlaşdırmışıq.

Biz həmçinin maliyyə hesabatlarının açıqlanmasının Cəmiyyətin kredit riskinə məruz qalmasını lazımi şəkildə əks etdirib-etdirmədiyini qiymətləndirmişik.

***Digər Məsələ***

Cəmiyyətin 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatları müstəqil auditor tərəfindən audit olunmuş və həmin auditor 11 aprel 2025-ci il tarixində bu maliyyə hesabatları üzrə modifikasiya edilməmiş rəy bildirmişdir.

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının auditi çərçivəsində biz, həmçinin 7 saylı Qeyddə təsvir edilən və 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarına tətbiq olunmuş düzəlişləri də audit etmişik. 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə düzəlişlər istisna olmaqla (əgər belə düzəlişlər mövcuddursa) Cəmiyyətin maliyyə hesabatlarının auditini aparmamışıq və bütövlükdə həmin maliyyə hesabatlarına dair rəy və ya hər hansı digər əminlik təqdim etmirik.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün şəkildə təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

**Nijat Rahimov**
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və. rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət etmədiyi halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

NR ProAudit
AUDIT & CONSULTING FIRM

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

**Nijat Rahimov**
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

23 aprel 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası • NR PROAUDİT • Limited Liability Company • Azerbaijan Republic

# BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKROKREDİT AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ
*(Əksi qeyd edilmədiyi halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il (yenidən bəyan edilmiş) |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 273,830 | 126,659 |
| Müştərilərə verilmiş borclar | 9 | 9,266,473 | 7,775,396 |
| Əmlak, tikili və qeyri-maddi aktivlər | 10 | 523,705 | 485,537 |
| İstifadə hüququ olan aktivlər | 11 | 63,547 | 25,108 |
| Təxirə salınmış vergi aktivi | | - | 44,974 |
| Digər aktivlər | 12 | 162,523 | 25,422 |
| **CƏMİ AKTİVLƏR** | | **10,290,078** | **8,483,096** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Müddətli borc öhdəlikləri | 13 | 3,365,063 | 1,373,542 |
| Buraxılmış borc qiymətli kağızları | 14 | 515,556 | 1,028,121 |
| İcarə öhdəliyi | 15 | 69,831 | 29,065 |
| Təxirə salınmış vergi öhdəliyi | 16 | 11,085 | - |
| Digər öhdəliklər | 17 | 50,559 | 43,866 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **4,012,094** | **2,474,594** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 18 | 693,774 | 693,774 |
| Yenidən qiymətləndirmə ehtiyatı | | 60,456 | 74,760 |
| Bölüşdürülməmiş mənfəət | | 5,523,754 | 5,239,968 |
| **CƏMİ KAPİTAL** | | **6,277,984** | **6,008,502** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **10,290,078** | **8,483,096** |

* 7 saylı Qeydə nəzər yetirin.

**Rəhbərlik adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

23 aprel 2026-cı il
Gəncə, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

23 aprel 2026-cı il
Gəncə, Azərbaycan Respublikası

10-58-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKROKREDİT AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd edilmədiyi halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2025-ci il başa çatmış il üzrə | 31 dekabr 2024-cü il (yenidən bayan edilmiş) |
|---|---|---|---|
| Effektiv faiz metodu ilə hesablanmış faiz gəliri | 19 | 2,687,826 | 1,871,530 |
| Faiz xərci | 19 | (471,447) | (392,262) |
| **Faiz gətirən aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün yaradılmış ehtiyatlardan əvvəlki xalis faiz gəliri** | | **2,216,379** | **1,479,268** |
| Faiz gətirən aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün yaradılmış ehtiyatın bərpası | 9 | - | 412 |
| Faiz gətirən aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyat | 9 | (65,475) | |
| Silinmiş kreditlər üzrə bərpa edilmiş məbləğlər | | 248,415 | 876,994 |
| Silinmiş kreditlərin bərpasından əldə edilmiş gəlir | | - | 258,756 |
| Ümidsiz kreditlərin silinməsi üzrə zərər | | - | - |
| **Xalis faiz gəliri** | | **2,399,319** | **2,615,430** |
| Digər gəlirlər, xalis | | 8,627 | 50,251 |
| İnzibati və digər əməliyyat xərcləri | 20 | (2,049,055) | (1,769,321) |
| Xarici valyuta mübadiləsindən yaranan xalis zərər | | (139) | (152) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **358,752** | **896,208** |
| Mənfəət vergisi xərci | 16 | (4,270) | (105,891) |
| **İl üzrə mənfəət** | | **354,482** | **790,317** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **354,482** | **790,317** |

* 7 saylı Qeydə nəzər yetirin.

**Rəhbərlik adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

23 aprel 2026-cı il
Gəncə, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

23 aprel 2026-cı il
Gəncə, Azərbaycan Respublikası

10-58-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKROKREDİT AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Nizamnamə kapitalı | Yenidən qiymətlən-dirmə ehtiyatı | Bölüşdürülmə-miş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il (yenidən bəyan edilmiş)*** | **693,774** | **89,064** | **4,435,347** | **5,218,185** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 790,317 | 790,317 |
| Yenidənqiymətləndirmə üzrə artımın amortizasiyası | - | (14,304) | 14,304 | - |
| **31 dekabr 2024-cü il (yenidən bəyan edilmiş)*** | **693,774** | **74,760** | **5,239,968** | **6,008,502** |
| İl üzrə cəmi məcmu gəlir | - | - | 354,482 | 354,482 |
| Elan edilmiş dividendlər | - | - | (85,000) | (85,000) |
| Yenidənqiymətləndirmə üzrə artımın amortizasiyası | - | (14,304) | 14,304 | - |
| **31 dekabr 2025-ci il** | **693,774** | **60,456** | **5,523,754** | **6,277,984** |

* 7 saylı Qeydə nəzər yetirin.

**Rəhbərlik adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

23 aprel 2026-cı il
Gəncə, Azərbaycan Respublikası

**Ruslan Qarayev**
**Maliyyə meneceri**

23 aprel 2026-cı il
Gəncə, Azərbaycan Respublikası

10-58-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKROKREDİT AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə (yenidən bəyan edilmiş)* |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Alınmış faizlər | | 2,751,298 | 1,913,856 |
| Ödənilmiş faizlər | | (448,847) | (370,780) |
| Bərpa edilmiş məbləğlər | | 248,415 | 876,994 |
| Ödənilmiş əməliyyat xərcləri | | (1,939,423) | (1,704,302) |
| Ödənilmiş mənfəət vergisi | | (121,000) | (84,000) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **490,443** | **631,768** |
| **Əməliyyat aktivlərində xalis (artım)/azalma:** | | | |
| Müştərilərə verilmiş kreditlər | | (1,481,755) | 553,389 |
| Digər aktivlər | | (137,101) | 9,345 |
| **Əməliyyat öhdəliklərində xalis artım/(azalma):** | | | |
| Digər öhdəliklər | | 6,693 | (38,007) |
| **Əməliyyat fəaliyyəti üzrə (istifadə edilmiş)/əldə edilmiş xalis pul vəsaitləri** | | **(1,121,720)** | **1,156,495** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi | | (88,505) | (126,846) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin satışından daxilolmalar | | - | 41,000 |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitləri** | | **(88,505)** | **(85,846)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ İLƏ BAĞLI PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Müddətli borc öhdəlikləri üzrə daxilolmalar | 13 | 4,467,502 | 1,000,000 |
| Müddətli borc öhdəliklərinin ödənilməsi | 13 | (2,492,491) | (2,875,733) |
| Korporativ istiqrazların emissiyası (buraxılışı) | 14 | - | 1,000,000 |
| Korporativ istiqrazların ödənilməsi | 14 | (500,000) | (350,000) |
| İcarə öhdəlikləri üzrə əsas borc hissəsinin ödənilməsi | 15 | (32,476) | (29,252) |
| Ödənilmiş dividendlər | | (85,000) | - |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə əldə edilmiş/(istifadə edilmiş) xalis pul vəsaitləri** | | **1,357,535** | **(1,254,985)** |

**BANK OLMAYAN KREDİT TƏŞKİLATI "VİATOR MİKROKREDİT AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)**

*(Əksi qeyd edilmədiyi halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | Qeydlər | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə (yenidən bəyan edilmiş)* |
|---|---|---|---|
| Məzənnə dəyişikliyinin pul vəsaitlərinə və onların ekvivalentlərinə təsiri | | (139) | (152) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)** | | **147,171** | **(184,488)** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | 8 | **126,659** | **311,147** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 8 | **273,830** | **126,659** |

* 7 saylı Qeydə nəzər yetirin.

**Rəhbərlik adından:**

**Aynur Əliyeva**
**İcraçı direktor**

23 aprel 2026-cı il
Gəncə, Azərbaycan Respublikası

**Rüstəm Qarayev**
**Maliyyə meneceri**

23 aprel 2026-cı il
Gəncə, Azərbaycan Respublikası

10-58-ci səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

"Viator Mikrokredit Azərbaycan" Bank olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti ("Cəmiyyət") 30 dekabr 2002-ci il tarixdə 1400163551 nömrəli vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) ilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyata alınmışdır.Cəmiyyətin əsas fəaliyyəti Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin nümayəndələrinə və fərdi şəxslərə maliyyə xidmətlərinin göstərilməsindən, o cümlədən kreditlərin verilməsindən ibarətdir. Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasının Mərkəzi Bankı ("ARMB") tərəfindən tənzimlənir və biznes funksiyaları ARMB tərəfindən məhdud bank əməliyyatları üçün verilmiş "136-QB" nömrəli bank olmayan kredit təşkilatının lisenziyasına əsasən həyata keçirilir.

31 dekabr 2025-ci il tarixinə nizamnamə kapitalı 693,774 AZN təşkil etmişdir və hər birinin nominal dəyəri 6,937.74 AZN olan 100 səhmdən ibarətdir (31 dekabr 2024-cü il tarixinə nizamnamə kapitalı 693,774 AZN təşkil etmişdir və hər birinin nominal dəyəri 6,937.74 AZN olan 100 səhmdən ibarət olmuşdur).

Cəmiyyətin nəzarət edən tərəfi "Viator AS" (Norveç Krallığı) şirkətidir.

Cəmiyyətin hüquqi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44, baş ofisinin yerləşdiyi yer isə Gəncə şəhəri, N. Nərimanov prospekti 207-dir.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə Cəmiyyətin səhmdarlarının strukturu aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2025-ci il % | 31 dekabr, 2024-cü il % |
|---|---|---|
| Viator AS (Norveç Krallığı) | 100 | 100 |
| | **100** | **100** |

## 2. CƏMİYYƏTİN ƏMƏLİYYAT MÜHİTİ

Cəmiyyətin fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Cəmiyyət inkişaf etməkdə olan bazar xüsusiyyətlərinə malik olan Azərbaycanın iqtisadi və maliyyə bazarlarının təsirinə məruz qalır. Hüquqi, vergi və tənzimləyici çərçivələr inkişaf etməkdə davam edir, lakin müxtəlif şərhlərə və tez-tez baş verən dəyişikliklərə məruz qalır ki, bu da digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən təsərrüfat subyektlərinin qarşılaşdıqları çətinliklərə səbəb olur.

2024 və 2025-ci illər ərzində qlobal iqtisadiyyat təchizat zəncirlərindəki əvvəlki qırılmalar, Rusiya Federasiyası və Ukrayna arasındakı münaqişə ilə bağlı geosiyasi gərginliklər və qlobal tələb modellərindəki dəyişikliklərdən sonra uyğunlaşmağa davam etmişdir. İnflyasiya təzyiqləri əvvəlki illərlə müqayisədə zəifləmişdir, lakin xammal qiymətləri geosiyasi hadisələrə və qlobal ticarət axınlarındakı dəyişikliklərə qarşı həssas olaraq qalmışdır.

2025-ci il ərzində Azərbaycan iqtisadiyyatı dövlət tərəfindən həyata keçirilən iqtisadi islahatlar, sabit məzənnə rejimi və kifayət qədər xarici valyuta ehtiyatlarının mövcudluğu fonunda ümumi makroiqtisadi sabitliyi qoruyub saxlamışdır.

İlkin məlumatlara görə, 2025-ci ildə Azərbaycanın ÜDM-i 129,1 milyard manat (75,9 milyard dollar) təşkil edərək, 2024-cü illə müqayisədə 1,4% artım nümayiş etdirib. Neft-qaz sektorunda əlavə dəyər 1,6% azaldığı halda, qeyri-neft sektorunda əlavə dəyər 2,7% artıb.

2025-ci ilin yanvar–noyabr ayları ərzində Azərbaycanın xarici ticarət dövriyyəsi 43,8 milyard ABŞ dolları təşkil etmişdir. Malların ixracı 22,6 milyard ABŞ dolları, malların idxalı isə 21,2 milyard ABŞ dolları məbləğində olmuş və nəticədə 1,5 milyard ABŞ dolları məbləğində müsbət ticarət saldosu yaranmışdır.

Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) məlumatına görə, 2025-ci ilin yanvar–dekabr dövrü üçün istehlak qiymətləri indeksi (İQİ) əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 105.6% təşkil etmişdir. ARMB monetar siyasətinin idarə olunması və Azərbaycan manatının sabitliyinin qorunub saxlanılması istiqamətində fəaliyyətini davam etdirmişdir. Qlobal inflyasiya tendensiyalarına uyğun olaraq, uçot dərəcəsi tənzimlənmiş və 31 dekabr 2025-ci il tarixinə yenidən maliyyələşdirmə dərəcəsi 7.0% səviyyəsində müəyyən edilmişdir (31 dekabr 2024-cü il tarixinə: 7.25%).

31 dekabr 2025-ci il tarixinə Azərbaycanın strateji xarici valyuta ehtiyatları, 31 dekabr 2024-cü il tarixinə 71 milyard ABŞ dolları ilə müqayisədə 83.5 milyard ABŞ dolları təşkil edərək Azərbaycan manatının sabitliyi və bütövlükdə makroiqtisadi dayanıqlılığı dəstəkləyən əhəmiyyətli artımı əks etdirmişdir.

"Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanın uzunmüddətli xarici valyuta kredit reytinqini "BBB" səviyyəsində, 2025-ci il üzrə sabit proqnozla qiymətləndirmişdir. Bu qiymətləndirmə güclü maliyyə göstəriciləri, güclü xarici balans mövqeyi və əhəmiyyətli dövlət aktivlərini əks etdirir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı böyük dərəcədə hökumət tərəfindən həyata keçirilən iqtisadi, maliyyə və pul-kredit tədbirlərinin səmərəliliyindən, habelə vergi, hüquq, qanunvericilik və siyasi sahələrdəki irəliləyişlərdən asılıdır. Rəhbərlik iqtisadi mühitdə Cəmiyyətin fəaliyyətinə təsir göstərə biləcək bütün prosesləri qabaqcadan proqnozlaşdırmaq iqtidarında deyil və müvafiq olaraq, həmin proseslərin Cəmiyyətin maliyyə vəziyyətinə mümkün təsirlərini müəyyən etmək hazırda mümkün deyildir.

## 3. ƏHƏMİYYƏTLİ UÇOT PRİNSİPLƏRİNƏ DAİR MƏLUMAT

Hazırkı maliyyə hesabatlarının hazırlanmasında tətbiq olunan əhəmiyyətli uçot siyasəti aşağıda qeyd edilmişdir:

**Təqdimatın əsasları**

Hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən dərc olunan MHBS Mühasibat Uçotu Standartlarına ("MHBS Mühasibat Uçotu Standartları") uyğun olaraq hazırlanmışdır.

**Əsas qiymətləndirmə şərtləri**

**Fasiləsizlik prinsipi**

Hazırkı maliyyə hesabatları Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini fasiləsizlik prinsipi əsasında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə ləğv olunmasına, fəaliyyətinin dayandırılmasına və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fəaliyyətin davamlılığı fərziyyəsini qiymətləndirməsi konkret zaman kəsiyində mahiyyətcə qeyri-müəyyən olan hadisə və ya şərtlərin gələcək nəticələri barədə mülahizə yürütməyi nəzərdə tutur.

**Maliyyə alətləri**

Maliyyə aləti bir müəssisənin maliyyə aktivinin, digər tərəfin (müəssisənin) isə maliyyə öhdəliyinin və ya kapital alətinin yaranmasına səbəb olan istənilən müqavilədir.

Təsnifatından asılı olaraq, maliyyə alətləri aşağıda qeyd edildiyi kimi ədalətli dəyərlə və ya amortizasiya edilmiş dəyərlə uçota alınır.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında həyata keçirilən müntəzəm əməliyyat zamanı aktivin satışından əldə ediləcək bilər və ya öhdəliyin ötürülməsi üçün ödəniləcək biləcək qiymətdir. Ədalətli dəyərin ən yaxşı sübutu aktiv bazardakı qiymətdir. Aktiv bazar — aktiv və ya öhdəlik üzrə əməliyyatların davamlı olaraq qiymət məlumatlarını təmin edə biləcək kifayət qədər tezlikdə və həcmdə baş verdiyi bazardır.

Aktiv bazarda ticarət edilən maliyyə alətlərinin **ədalətli dəyəri**, fərdi aktiv və ya öhdəlik üzrə kotirovka olunan qiymətin müəssisənin sahib olduğu alətlərin sayına hasili kimi ölçülür. Bazarın normal gündəlik ticarət həcmi sahib olunan miqdarı mənimsəmək üçün kifayət etmədikdə və mövqenin vahid əməliyyatla satılması barədə verilən sifarişlərin kotirovka olunan qiymətə təsir göstərə biləcəyi təqdirdə belə, bu qayda tətbiq edilir.

Xarici bazar qiymətləri barədə məlumatın mövcud olmadığı müəyyən maliyyə alətlərinin ədalətli dəyərini ölçmək üçün diskontlaşdırılmış pul axınları modelləri, yaxın keçmişdə tərəflərin sərbəstliyi (müstəqilliyi) prinsipilə həyata keçirilmiş əməliyyatlara əsaslanan modellər və ya investisiya obyektlərinin maliyyə göstəricilərinin nəzərə alınması kimi qiymətləndirmə üsullarından istifadə olunur.

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər) və ya dolayısı ilə (yəni qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri — maliyyə alətinin əldə edilməsi, buraxılışı (emissiyası) və ya özgəninkiləşdirilməsi ilə birbaşa bağlı olan artımlı xərclərdir. Artımlı xərc dedikdə, əməliyyat baş verməDiyi təqdirdə çəkilməyəcək xərclər nəzərdə tutulur. Əməliyyat xərclərinə agentlərə (o cümlədən satış agenti kimi çıxış edən işçilərə), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilən haqlar və komissiyalar, tənzimləyici qurumlar və fond birjaları tərəfindən tətbiq olunan yığımlar, habelə köçürmə vergiləri və rüsumları daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya edilmiş dəyər — maliyyə alətinin ilkin tanınma zamanı qiymətləndirilmiş məbləğindən əsas borcun hər hansı ödənişləri çıxılmaqla, üzərinə hesablanmış faizlər əlavə edilməklə və maliyyə aktivləri üçün gözlənilən kredit itkiləri ("GKI") üzrə ehtiyatlar çıxılmaqla müəyyən edilən məbləğdir.
Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir.

Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin qalıq dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis qalıq dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

Effektiv faiz dərəcəsi, dəyişən faizli alətlərin ümumi pul axınlarını növbəti faiz dərəcəsinin yenidən müəyyən edilməsi tarixinədək diskontlaşdırır; alətdə göstərilən üzən dərəcə üzrə kredit spredini əks etdirən mükafat və ya diskont, yaxud bazar dərəcələrinə uyğun olaraq yenilənməyən digər dəyişənlər bura istisnadır. Bu cür mükafatlar və ya diskontlar alətin bütün gözlənilən xidmət müddəti ərzində amortizasiya olunur. İndiki dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilən və ya alınan, effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsi olan bütün komissiyalar daxildir.

**Maliyyə alətləri – ilkin tanınma**

Maliyyə aktivləri ilkin tanınma zamanı aşağıdakı kateqoriyalardan birinə uyğun olaraq təsnifləşdirilir: (1) mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə qiymətləndirilən maliyyə aktivləri, (2) digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə qiymətləndirilən maliyyə aktivləri və ya (3) amortizasiya olunmuş dəyərlə uçota alınan maliyyə aktivləri .

Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə qiymətləndirilən maliyyə alətləri, əgər varsa, ilkin olaraq ədalətli dəyərlə uçota alınır. Digər bütün maliyyə alətləri ilkin olaraq əməliyyat xərcləri nəzərə alınmaqla düzəliş edilmiş ədalətli dəyərlə uçota alınır. İlkin tanınma zamanı ədalətli dəyərin ən yaxşı sübutu əməliyyat qiymətidir. İlkin tanınma üzrə mənfəət və ya zərər yalnız o halda uçota alınır ki, ədalətli dəyər və əməliyyat qiyməti arasında fərq olsun və bu fərq eyni alətlə bağlı digər müşahidə olunan cari bazar əməliyyatları və ya daxilolmaları yalnız müşahidə olunan bazarların məlumatlarından ibarət olan qiymətləndirmə metodu ilə sübut olunsun. İlkin tanınmadan sonra, amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri ehtiyatı tanınır.

Maliyyə aktivlərinin tənzimləmə və ya bazar adətləri ilə müəyyən edilmiş müddət ərzində çatdırılmasını tələb edən bütün alqı-satqısı ("müntəzəm qaydada" alqı-satqı) ticarət tarixində, yəni Cəmiyyətin maliyyə aktivini çatdırmağa öhdəlik götürdüyü tarixdə uçota alınır. Digər bütün satınalmalar isə Cəmiyyətin alətin müqavilə şərtlərinin tərəfi olduğu tarixdə tanınır.

**Maliyyə aktivləri – təsnifləşdirmə və sonrakı qiymətləndirmə – qiymətləndirmə kateqoriyaları**

Cəmiyyət maliyyə aktivlərini aşağıdakı qiymətləndirmə kateqoriyaları üzrə təsnifləşdirir: MZED, DMGED və AD. Borc maliyyə aktivlərinin təsnifatı və sonrakı qiymətləndirilməsi aşağıdakılardan asılıdır: (I) Cəmiyyətin müvafiq aktivlər portfelini idarə etmək üçün tətbiq etdiyi biznes modeli və (II) aktivin pul axını xüsusiyyətləri.

Maliyyə aktivi aşağıdakı hər iki şərtə cavab verdikdə və MZVƏD (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə uçota alınan) kimi təsnif edilmədikdə, amortizasiya edilmiş dəyərlə ölçülür:

- aktiv, müqavilə üzrə pul axınlarını toplamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri, müəyyən edilmiş tarixlərdə yalnız əsas məbləğ və ödənilməmiş əsas məbləğ üzrə faiz ödənişlərindən ibarət pul axınlarının yaranmasını təmin edir.

Borc aləti yalnız aşağıdakı hər iki şərti ödədikdə və mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZVƏD) kimi təyin edilmədikdə digər məcmu gəlir vasitəsilə ədalətli dəyər (DMGƏD) üzrə ölçülür:

- aktiv, məqsədi həm müqavilə üzrə pul axınlarının toplanması, həm də maliyyə aktivlərinin satılması ilə həyata keçirilən biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri, müəyyən edilmiş tarixlərdə yalnız əsas məbləğ və ödənilməmiş əsas məbləğ üzrə faiz ödənişlərindən ibarət pul axınlarının yaranmasını təmin edir.

Ticarət məqsədilə saxlanılmayan kapital investisiyasının ilkin tanınması zamanı Cəmiyyət sonrakı ədalətli dəyər dəyişikliklərini digər məcmu gəlirdə təqdim etməyi geri dönməz şəkildə seçə bilər. Bu seçim hər bir investisiya üzrə ayrıca edilir.

Bütün digər maliyyə aktivləri mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZVƏD) üzrə ölçülən kimi təsnif edilir.

Bundan əlavə, ilkin tanınma zamanı Cəmiyyət, əks halda amortizasiya olunmuş dəyər üzrə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyər (DMGƏD) üzrə ölçülmə tələblərinə cavab verən maliyyə aktivini, əgər bu, əks halda yaranacaq mühasibat uyğunsuzluğunu aradan qaldırır və ya əhəmiyyətli dərəcədə azaldırsa, mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZVƏD) kimi geri dönməz şəkildə təyin edə bilər.

**Biznes modelinin qiymətləndirilməsi**

Cəmiyyət aktivin saxlanıldığı biznes modelinin məqsədini portfel səviyyəsində qiymətləndirir, çünki bu, biznesin necə idarə olunduğunu və məlumatın rəhbərliyə necə təqdim edildiyini daha düzgün əks etdirir. Nəzərə alınan məlumatlara aşağıdakılar daxildir:

- Portfel üzrə bəyan edilmiş siyasətlər və məqsədlər və bu siyasətlərin praktikada tətbiqi. Xüsusilə, rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirinin əldə edilməsinə, müəyyən faiz dərəcəsi profilinin saxlanılmasına, maliyyə aktivlərinin müddətinin bu aktivləri maliyyələşdirən öhdəliklərin müddəti ilə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının reallaşdırılmasına yönəlib-yönəlməməsi;
- portfelin fəaliyyət göstəricilərinin necə qiymətləndirildiyi və Cəmiyyətin rəhbərliyinə necə təqdim edildiyi;
- biznes modelinin fəaliyyətinə (və həmin model daxilində saxlanılan maliyyə aktivlərinə) təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin idarəçilərinin necə mükafatlandırılması – məsələn, mükafatlandırmanın idarə olunan aktivlərin ədalətli dəyərinə əsaslanıb-əsaslanmaması və ya toplanan müqavilə üzrə pul axınlarına əsaslanıb-əsaslanmaması;
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və vaxtı, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti ilə bağlı gözləntilər. Bununla belə, satış fəaliyyəti haqqında məlumat ayrıca nəzərdən keçirilmir, Cəmiyyətin maliyyə aktivlərinin idarə olunmasına dair bəyan edilmiş məqsədinin necə həyata keçirildiyi və pul axınlarının necə reallaşdırıldığı barədə ümumi qiymətləndirmənin bir hissəsi kimi qiymətləndirilir.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Cəmiyyət alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını özündə əhatə edəcək.

Qiymətləndirmə zamanı Cəmiyyət aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- leveraj (qaldıraç) xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Cəmiyyətin iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər məsələn, reqressiz aktivlər; və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məsələn, faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

**Maliyyə alətlərinin yenidən təsnifi**

Maliyyə aktivləri Təşkilatın maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

**Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu**

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal edilən kredit zərərləri istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında xalis qalıq məbləğinədək diskontlaşdıran dəqiq dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi balans dəyəri hər hansı bir zərər öhdəliyinə düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır. Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit zərərinə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Sonradan kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivləri üçün faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə tanınır. Əgər sonrakı hesabat dövrlərində kredit zərərinə məruz qalmış maliyyə aləti üzrə kredit riski maliyyə aktivinin artıq kredit zərərinə məruz qalmamasına səbəb olursa, faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin ümumi balans dəyərinə tətbiq etməklə tanınır.

Cəmiyyətin maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Cəmiyyətin maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Cəmiyyət mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliklərinin təsnifatını seçmir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi**

Cəmiyyət aşağıdakı mənfəət və ya zərər vasitəsilə ədalətli dəyər (MZVƏD) üzrə ölçülməyən maliyyə alətləri üzrə EOKZ üçün zərər ehtiyatlarını tanıyır:

- borc alətləri olan maliyyə aktivləri
- verilmiş kredit öhdəlikləri;

12 aylıq Ehtimal Olunan Kredit Zərəri (EOKZ) hesabat tarixindən sonrakı 12 ay ərzində baş verməsi mümkün olan defolt hadisələrindən yaranan EOKZ hissəsidir. 12 aylıq EOKZ tanınan maliyyə alətləri "Mərhələ 1" (Stage 1) maliyyə alətləri adlanır.

Ömürlük EOKZ isə maliyyə alətinin gözlənilən müddəti ərzində baş verə biləcək bütün mümkün defolt hadisələrindən yaranan EOKZ-lərdir. Ömürlük EOKZ kimi tanınan maliyyə alətləri "Mərhələ 2" maliyyə alətləri (əgər ilkin tanınmadan sonra kredit riski əhəmiyyətli dərəcədə artmış, lakin maliyyə aləti kredit üzrə dəyərsizləşməmişdirsə) və "Mərhələ 3" maliyyə alətləri (əgər maliyyə aləti kredit üzrə dəyərsizləşmişdirsə) adlanır.

**Ehtimal Olunan Kredit Zərəri (EOKZ) ölçülməsi**

EOKZ ehtimalla çəkilmiş kredit itkiləri təxminidir. Onlar aşağıdakı kimi ölçülür:

- hesabat tarixində kredit üzrə dəyərsizləşməmiş maliyyə aktivləri: bütün pul çatışmazlıqlarının (yəni müqaviləyə uyğun olaraq müəssisəyə ödənilməli olan pul axınları ilə Cəmiyyətin alacağını gözlədiyi pul axınları arasındakı fərqin) cari dəyəri kimi;
- hesabat tarixində kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri: ümumi balans dəyəri ilə təxmin edilən gələcək pul axınlarının cari dəyəri arasındakı fərq kimi.

**Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri**

Hər hesabat tarixində Cəmiyyət amortizasiya olunmuş dəyər üzrə uçota alınan maliyyə aktivlərinin kredit üzrə dəyərsizləşmiş olub-olmadığını qiymətləndirir. Maliyyə aktivi o zaman "kredit üzrə dəyərsizləşmiş" hesab olunur ki, həmin aktiv üzrə gələcək pul axınlarının təxmininə mənfi təsir göstərən bir və ya bir neçə hadisə baş vermiş olsun.

Maliyyə aktivinin kredit üzrə dəyərsizləşmiş olduğuna dair sübutlara aşağıdakı müşahidə edilə bilən məlumatlar daxildir:

- borcalanın Cəmiyyət qarşısında hər hansı əhəmiyyətli kredit öhdəliyi üzrə 90 gündən artıq gecikməsi;
- Cəmiyyətin bank depozitləri üzrə hesab qalıqlarından istifadəyə məhdudiyyətlər və ya 7 gündən artıq gecikmiş ödənişlər;
- borcalanın ciddi maliyyə çətinlikləri;
- Cəmiyyətin başqa halda qəbul etməyəcəyi şərtlərlə kreditin restrukturizasiyası.

Borcalanın vəziyyətinin pisləşməsi səbəbindən yenidən razılaşdırılmış kredit, adətən kredit üzrə dəyərsizləşmiş hesab olunur, əgər müqavilə üzrə pul axınlarının alınmaması riskinin əhəmiyyətli dərəcədə azaldığına dair sübut yoxdursa və digər dəyərsizləşmə göstəriciləri mövcud deyilsə. Bundan əlavə, 90 gün və ya daha artıq gecikmiş pərakəndə kredit kredit üzrə dəyərsizləşmiş hesab olunur.

**Maliyyə vəziyyəti haqqında hesabatda Ehtimal Olunan Kredit Zərəri (EOKZ) üzrə ehtiyatın təqdimatı**

Amortizasiya olunmuş dəyər üzrə ölçülən maliyyə aktivləri üçün Ehtimal Olunan Kredit Zərəri (EOKZ) üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aktivlərin ümumi balans dəyərindən çıxılma (azaldılma) kimi təqdim edilir.

**Silinmə**

Müştərilərə verilmiş kreditlər, maliyyə aktivinin tam və ya qismən geri qaytarılmasına dair əsaslı gözlənti qalmadıqda silinir. Bu, adətən Cəmiyyət borcalanın silinməyə məruz qalan məbləğləri ödəmək üçün kifayət qədər pul axını yarada biləcək aktivlərə və ya gəlir mənbələrinə malik olmadığını müəyyən etdikdə baş verir. Bu qiymətləndirmə hər bir aktiv üzrə fərdi qaydada aparılır.

Əvvəlki dövrlərdə silinmiş məbləğlərin bərpası mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatda Ehtimal Olunan Kredit Zərəri (EOKZ) maddəsinə daxil edilir.
Silinmiş maliyyə aktivləri, Cəmiyyətin borcların geri qaytarılması prosedurlarına uyğun olaraq, hələ də icra (tələb etmə) tədbirlərinə məruz qala bilər.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- Aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- Əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Cəmiyyət tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir. Qeyri-maddi aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Cəmiyyət həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatında açıqlanmış bütün aktiv və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- 1-ci Səviyyə – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- 2-ci Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın birbaşa və ya dolayısı ilə müşahidə edilə biləcəyi qiymətləndirmə üsulları;
- 3-cü Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın müşahidə oluna bilmədiyi qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Cəmiyyət hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə aktivini yalnız o halda balansdan çıxarır ki, ya aktivdən yaranan pul axınlarına dair müqavilə üzrə hüquqların müddəti başa çatmış olsun, ya da Cəmiyyət maliyyə aktivini və həmin aktivlə bağlı mülkiyyətin bütün əsas risk və mükafatlarını başqa bir müəssisəyə ötürmüş olsun.

**Maliyyə öhdəlikləri və kapital**

**Borc və ya kapital aləti olaraq təsnifləşdirmə**

Borc və kapital alətləri, müqavilə razılaşmalarının mahiyyətinə və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

**Kapital alətləri**

Kapital aləti, bütün öhdəlikləri çıxıldıqdan sonra müəssisənin aktivlərində qalıq payı təsdiq edən hər hansı müqavilədir. Cəmiyyət tərəfindən buraxılmış kapital alətləri birbaşa buraxılış xərcləri çıxılmaqla alınmış vəsait məbləği ilə tanınır.

Cəmiyyətin öz kapital alətlərinin geri alınması birbaşa kapitalda tanınır və ondan çıxılır. Cəmiyyətin öz kapital alətlərinin alınması, satışı, buraxılışı və ya ləğvi üzrə mənfəət və ya zərər mənfəət və zərər hesabında tanınmır.

**Maliyyə öhdəlikləri**

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə və MZVƏD əsasında tanınmaqla amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəliyi (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutulduğu halda maliyyə öhdəlikləri MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin, yaxud maliyyə aktivləri və ya öhdəlikləri qrupunun amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəliri, yaxud faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur. Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən məntəqələrdə ödənilmiş, yaxud alınmış bütün haqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Cəmiyyət maliyyə öhdəliyini maliyyə vəziyyəti haqqında hesabatlarından (və ya maliyyə öhdəliyinin bir hissəsini) yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi, maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Şərtlər o zaman əhəmiyyətli dərəcədə fərqli hesab olunur ki, yeni şərtlər üzrə pul axınlarının diskontlaşdırılmış cari dəyəri (ödənilmiş hər hansı komissiyalar çıxılmaqla və alınmış hər hansı komissiyalar daxil edilməklə və ilkin effektiv faiz dərəcəsindən istifadə olunmaqla diskontlaşdırılaraq) ilkin maliyyə öhdəliyinin qalan pul axınlarının diskontlaşdırılmış cari dəyərindən ən azı 10 faiz fərqlə olsun.

Əgər borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi (extinguishment) kimi uçota alınırsa, çəkilmiş hər hansı xərclər və ya komissiyalar həmin ləğv üzrə mənfəət və ya zərərin tərkib hissəsi kimi tanınır.

Əgər mübadilə və ya dəyişiklik öhdəliyin ləğvi kimi uçota alınmırsa, çəkilmiş hər hansı xərclər və ya komissiyalar öhdəliyin balans dəyərinə əlavə edilir və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız o halda əvəzləşdirilir və xalis məbləğ maliyyə vəziyyəti haqqında hesabatda təqdim edilir ki, eyni zamanda:

- tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün hazırda icra edilə bilən hüquqi hüquq mövcud olsun; və ya
- xalis əsasda hesablaşma aparmaq niyyəti, ya da aktivlərin reallaşdırılması və öhdəliklərin eyni vaxtda yerinə yetirilməsi niyyəti olsun.

**Pul vəsaitləri və pul ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassadakı nağd pul, yolda olan nağd pul, banklarda saxlanılan depozitlər və ilkin müddəti üç ay və ya daha az olan digər yüksək likvid qısamüddətli investisiyalar daxildir. Nağd pul və pul ekvivalentləri effektiv faiz metodu ilə amortizasiya olunmuş dəyər üzrə uçota alınır. Nağd pul və pul ekvivalentləri amortizasiya olunmuş dəyər üzrə uçota alınır, çünki: (i) onlar müqavilə üzrə pul axınlarının toplanması məqsədilə saxlanılır və həmin pul axınları yalnız əsas məbləğ və faiz ödənişlərindən Yalnız əsas məbləğ və faiz ödənişlərini təqdim edir və (ii) onlar DMGVƏD üzrə təyin edilməmişdir.

**Müştərilərə verilmiş kreditlər**

Müştərilərə verilmiş kreditlər maliyyə vəziyyəti haqqında hesabatda amortizasiya olunmuş dəyər üzrə ölçülən kreditləri əhatə edir; onlar ilkin olaraq ədalətli dəyər ilə, üstəgəl birbaşa əməliyyat xərcləri ilə ölçülür və sonradan effektiv faiz metodu ilə amortizasiya olunmuş dəyər üzrə uçota alınır.

**Əmlak və avadanlıqlar**

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər (binalar istisna olmaqla) ilkin dəyərdən yığılmış amortizasiya və hər hansı tanınmış dəyərsizləşmə itkiləri çıxılmaqla uçota alınır.
Amortizasiya və köhnəlmə xərcləri əmlak, avadanlıq və qeyri-maddi aktivlərin balans dəyərinə tətbiq edilir və aktivlərin faydalı iqtisadi ömrü ərzində silinməsi məqsədi daşıyır. Təxmini faydalı istifadə müddətləri, qalıq dəyərlər və amortizasiya metodu hər hesabat dövrünün sonunda yenidən nəzərdən keçirilir və hər hansı dəyişikliklər perspektiv əsasda (gələcək dövrlərə tətbiq edilməklə) aşağıdakı faydalı istifadə müddətləri üzrə uçota alınır:

| | |
|---|---|
| İstifadə hüququ olan aktivlər | icarə müddətindən asılıdır |
| Bina və tikililər | 2% |
| Kompüter və rabitə avadanlıqları | 20-25% |
| Mebel və inventar | 20-25% |
| Nəqliyyat vasitələri | 10-20% |
| Qeyri-maddi aktivlər | 10-20% |

Təmir və yeniləmə ilə bağlı xərclər yarandığı anda xərc kimi tanınır və kapitallaşdırılma tələblərinə cavab vermədiyi halda əməliyyat xərclərinə daxil edilir.

Binalar maliyyə vəziyyəti haqqında hesabatda yenidən qiymətləndirilmiş məbləğləri ilə təqdim edilir; bu məbləğlər yenidən qiymətləndirmə tarixində ədalətli dəyər olub, peşəkar müstəqil qiymətləndiricilər tərəfindən aparılan bazar əsaslı qiymətləndirmə nəticəsində müəyyən edilir, sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla. Yenidən qiymətləndirmələr müntəzəm aparılır ki, balans dəyəri hesabat tarixində ədalətli dəyərdən əhəmiyyətli dərəcədə fərqlənməsin.

Əmlakın bazar dəyəri bazar yanaşması metodu ilə qiymətləndirilir; bu metod oxşar daşınmaz əmlak üzrə bazar satış qiymətlərinin təhlilinə əsaslanır və 13 saylı MHBS-yə uyğun olaraq binanın ədalətli dəyərinə bərabərdir.

Binaların yenidən qiymətləndirilməsi nəticəsində yaranan hər hansı artım əmlakın yenidən qiymətləndirmə ehtiyatına kreditləşdirilir; lakin həmin artım eyni aktiv üzrə əvvəlcədən xərc kimi tanınmış azalmaları bərpa etdiyi hissədə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda tanınır. Binaların yenidən qiymətləndirilməsi nəticəsində yaranan azalma isə, həmin aktiv üzrə əvvəlki yenidən qiymətləndirmə ilə bağlı ehtiyat qalığı olduqda həmin məbləğlə məhdudlaşdırılaraq, artıq hissəsi xərc kimi tanınır.

Yenidən qiymətləndirilmiş binalar üzrə amortizasiya mənfəət və zərər hesabına aid edilir. Yenidən qiymətləndirilmiş əmlakın sonradan satışı və ya istismardan çıxarılması zamanı, yenidən qiymətləndirmə ehtiyatında qalan müvafiq məbləğ birbaşa yığılmış zərərə köçürülür.

Aktivin (və ya pul yaradan vahidin) bərpa edilə bilən dəyəri onun balans dəyərindən aşağı olduğu təxmin edilərsə, aktivin (və ya pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən dəyərinə qədər azaldılır. Dəyərsizləşmə zərəri dərhal mənfəət və zərər hesabında tanınır; lakin müvafiq aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınırsa, bu zərər yenidən qiymətləndirmə azalması kimi uçota alınır.

Dəyərsizləşmə zərəri sonradan bərpa olunduqda, aktivin (və ya pul yaradan vahidin) balans dəyəri onun yenidən hesablanmış bərpa edilə bilən dəyərinə qədər artırılır, lakin bu artım əvvəlki illərdə heç bir dəyərsizləşmə tanınmamış olsaydı formalaşacaq balans dəyərini keçə bilməz.

Dəyərsizləşmənin bərpası dərhal mənfəət və zərər hesabında tanınır; lakin aktiv yenidən qiymətləndirilmiş dəyərlə uçota alınırsa, bu bərpa yenidən qiymətləndirmə artımı kimi tanınır.

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər satış zamanı və ya gələcək iqtisadi fayda gözlənilmədikdə balansdan çıxarılır. Aktivin satışı və ya istismardan çıxarılması nəticəsində yaranan mənfəət və ya zərər satış gəliri ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və zərər hesabında tanınır.

**Qeyri-maddi aktivlər**

Qeyri-maddi aktivlərə proqram təminatı lisenziyalarına investisiyalar və onların fərdiləşdirilməsi daxildir.

Ayrı-ayrılıqda əldə edilmiş məhdud faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlər ilkin dəyərdən yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla uçota alınır. Amortizasiya onların təxmin edilən faydalı istifadə müddəti ərzində düzxətli metodla tanınır. Qeyri-maddi aktivlər üçün təxmin edilən faydalı istifadə müddəti 10 ildir. Faydalı istifadə müddəti və amortizasiya metodu hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və hər hansı dəyişikliklərin təsiri perspektiv əsasda (gələcək dövrlərə tətbiq edilməklə) uçota alınır.

Müəyyən edilməmiş faydalı istifadə müddətinə malik, ayrı-ayrılıqda əldə edilmiş qeyri-maddi aktivlər isə ilkin dəyərdən yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla uçota alınır.

**Mənfəət vergisi.**

Mənfəət vergisi xərci cari ödənilməli vergi və təxirə salınmış vergi xərclərinin cəmidir.

**Cari vergi**

Cari ödənilməli vergi il üzrə vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Vergiyə cəlb olunan mənfəət, mənfəət və digər məcmu gəlir haqqında hesabatda göstərilən mənfəətdən fərqlənir, çünki bəzi gəlir və ya xərclər ya başqa illərdə vergiyə cəlb olunur və ya çıxılır, bəzi maddələr isə ümumiyyətlə nə vergiyə cəlb olunur, nə də çıxılır. Cəmiyyətin cari vergi öhdəliyi hesabat dövrünün sonuna qədər qüvvəyə minmiş və ya faktiki olaraq qüvvəyə minmiş vergi dərəcələri əsasında hesablanır.

**Təxirə salınmış vergi**

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların qalıq dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. Təxirə salınmış vergi öhdəliyi adətən bütün vergiyə cəlb olunan müvəqqəti fərqlər üzrə tanınır və təxirə salınmış vergi aktivləri üzrə qiymətləndirmə ehtiyatı yaradılır ki, xalis balans dəyəri mövcud və ya gələcək vergiyə cəlb olunan mənfəət əsasında geri qaytarılmasının daha çox ehtimal olunduğu maksimum məbləğə bərabər olsun.

Belə aktiv və öhdəliklər, əgər müvəqqəti fərq qudvil (goodwill) və ya (biznes birləşməsindən başqa) əməliyyatın nə vergi mənfəətinə, nə də mühasibat mənfəətinə təsir etməyən aktiv və öhdəliklərin ilkin tanınmasından yaranırsa, tanınmır. Təxirə salınmış vergi aktivinin balans dəyəri hər hesabat tarixində nəzərdən keçirilir və artıq onun tam və ya qismən geri qaytarılması üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin əldə olunmasının mümkün olmadığı hallarda azaldılır.

Təxirə salınmış vergi, öhdəliyin yerinə yetiriləcəyi və ya aktivin reallaşdırılacağı dövrdə tətbiq olunması gözlənilən vergi dərəcələri əsasında hesablanır. Təxirə salınmış vergi mənfəət və digər məcmu gəlir haqqında hesabatda tanınır, lakin birbaşa kapitala aid edilən maddələrlə bağlı olduqda, həmin vergi də kapitalda tanınır.

Balans hesabatında aktiv və ya öhdəliyin balans dəyərinin onun vergi bazasından fərqlənməsi nəticəsində yaranan bütün müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanır. Bu, öhdəliklərin yerinə yetirilməsi gözlənilən dövr üçün nəzərdə tutulan vergi dərəcələri ilə hesablanır və balans tarixində qüvvədə olan vergi dərəcələri və qanunlara əsaslanır. Təxirə salınmış vergi üzrə dəyişikliklər mənfəət və zərər hesabatında tanınır.

**Borc və kreditlər**

Bütün kreditlər və borclar ilkin olaraq alınmış vəsaitin ədalətli dəyəri ilə, birbaşa aid edilən əməliyyat xərcləri çıxılmaqla tanınır. İlkin tanınmadan sonra faiz daşıyan kreditlər və borclar effektiv faiz metodu ilə amortizasiya olunmuş dəyər üzrə ölçülür. Öhdəliklər balansdan çıxarıldıqda, həmçinin amortizasiya prosesi vasitəsilə yaranan mənfəət və zərər mənfəət və digər məcmu gəlir haqqında hesabatda tanınır.

**İcarələr**

Cəmiyyət müqavilənin başlanğıcında onun icarə olub-olmadığını və ya icarə ehtiva edib-etmədiyini qiymətləndirir. Yəni müqavilə müəyyən aktivin istifadəsinə nəzarət hüququnu müəyyən müddət ərzində qarşılıq müqabilində ötürürsə, bu icarə kimi qəbul edilir.

**Cəmiyyət icarəyə götürən (lessee) kimi**

Cəmiyyət bütün icarələr üçün, qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarələri istisna olmaqla, vahid tanınma və ölçmə yanaşması tətbiq edir. Cəmiyyət icarə öhdəliklərini icarə ödənişlərini yerinə yetirmək üçün tanıyır və əsas aktivlər üzrə istifadə hüququnu əks etdirən istifadə hüququ aktivlərini uçota alır.

**İstifadə hüququ olan aktivlər**

Cəmiyyət istifadə hüququ aktivlərini icarənin başlanğıc tarixində (yəni əsas aktivin istifadəyə hazır olduğu tarixdə) tanıyır. İstifadə hüququ aktivləri ilkin dəyər ilə ölçülür, yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılır və icarə öhdəliklərinin yenidən ölçülməsi üzrə düzəliş edilir. İstifadə hüququ aktivlərinin dəyərinə tanınmış icarə öhdəliyi məbləği, çəkilmiş ilkin birbaşa xərclər və icarə başlanğıcına qədər və ya həmin tarixdə edilmiş icarə ödənişləri, alınmış hər hansı icarə stimulları çıxılmaqla daxil edilir. İstifadə hüququ aktivləri icarə müddəti ilə müqayisədə daha qısa olan müddət ərzində düzxətli metodla amortizasiya olunur.

Əgər icarə aktivinin mülkiyyəti icarə müddətinin sonunda Cəmiyyətə keçirsə və ya dəyər alış opsionunun həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı istifadə müddəti əsasında hesablanır. İstifadə hüququ aktivləri həmçinin dəyərsizləşmə testinə məruz qalır.

**İcarə öhdəlikləri**

İcarənin başlanğıc tarixində Cəmiyyət icarə ödənişlərinin cari dəyəri əsasında icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə sabit ödənişlər (mahiyyət etibarilə sabit ödənişlər

daxil olmaqla) çıxılmaqla alınacaq icarə stimulları, indeks və ya dərəcədən asılı dəyişən ödənişlər və qalıq dəyər zəmanətləri üzrə gözlənilən ödənişlər daxildir. İcarə ödənişlərinə həmçinin Cəmiyyətin həyata keçirməsi ağlabatan dərəcədə mümkün olan alış opsionunun icra qiyməti və icarənin ləğvi üzrə cərimə ödənişləri daxildir, əgər icarə müddəti Cəmiyyətin həmin opsionu həyata keçirməsini nəzərdə tutursa.

İndeks və ya dərəcədən asılı olmayan dəyişən icarə ödənişləri həmin ödənişi yaradan hadisə və ya şərt baş verdiyi dövrdə xərc kimi tanınır (əgər onlar ehtiyatların istehsalı üçün yaranmayıbsa).

İcarə ödənişlərinin cari dəyərinin hesablanmasında Cəmiyyət icarənin başlanğıc tarixində artan borclanma faiz dərəcəsindən istifadə edir, çünki icarədə nəzərdə tutulan faiz dərəcəsi adətən müəyyən edilmir. Başlanğıc tarixindən sonra icarə öhdəliyinin məbləği faiz hesablanması ilə artırılır və edilən icarə ödənişləri ilə azaldılır. Bundan əlavə, icarə öhdəliyinin balans dəyəri icarə şərtlərində dəyişiklik, icarə müddətində dəyişiklik, icarə ödənişlərində dəyişiklik (məsələn, indeks və ya dərəcəyə bağlı gələcək ödənişlərdə dəyişiklik) və ya əsas aktivin alınması opsionunun qiymətləndirilməsində dəyişiklik olduqda yenidən ölçülür.

İcarə öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatda digər öhdəliklərdən ayrıca təqdim edilir. Əgər ayrıca təqdim edilmirsə, həmin öhdəliklərin hansı sətir maddələrində göstərildiyi açıqlanır.

**Digər öhdəliklər**

Digər öhdəliklər qarşı tərəf müqavilə üzrə öhdəliklərini yerinə yetirdikdə hesablanır və effektiv faiz metodu ilə amortizasiya olunmuş dəyər üzrə uçota alınır.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarı tərəfindən qoyulan kapital məbləğidir. Cəmiyyət səhmdarların təsdiqi ilə nizamnamə kapitalını artıra və ya azalda bilər.
Səhmdarlar tərəfindən nizamnamə kapitalından başqa edilən vəsait qoyuluşları və ya vəsait çıxarışları digər kapitalda tanınır.
Adi səhmlər üzrə dividendlər elan edildiyi dövrdə kapitalın azalması kimi kapitalda tanınır. Hesabat tarixindən sonra elan edilən dividendlər 10 saylı BAS "Hesabat tarixindən sonrakı hadisələr" standartına uyğun olaraq sonradan baş verən hadisə kimi uçota alınır və müvafiq şəkildə açıqlanır.

**Digər ehtiyatlar**

Digər ehtiyatlar ilkin tanınma tarixində müstəqil qiymətləndirici tərəfindən müəyyən edilmiş investisiya mülkiyyətinin ədalətli dəyəri ilə nizamnamə kapitalının artım məbləği arasındakı fərqi əks etdirir.

**Faiz gəliri və xərclərinin hesablanması**

Maliyyə aktivinin və ya maliyyə öhdəliyinin effektiv faiz dərəcəsi ilkin tanınma zamanı hesablanır. Faiz gəliri və xərcləri hesablanarkən effektiv faiz dərəcəsi aktivin ümumi balans dəyərinə (aktiv kredit üzrə dəyərsizləşməmiş olduqda) və ya öhdəliyin amortizasiya olunmuş dəyərinə tətbiq edilir. Dəyişkən faizli alətlər üzrə pul axınlarının dövri yenidən qiymətləndirilməsi nəticəsində bazar faiz dərəcələrindəki dəyişiklikləri əks etdirmək üçün effektiv faiz dərəcəsi yenilənir.

Effektiv faiz dərəcəsi həmçinin hedc düzəlişinin amortizasiyası başladığı tarixdə ədalətli dəyər hedc düzəlişləri üçün yenidən nəzərdən keçirilir.

Lakin ilkin tanınmadan sonra kredit üzrə dəyərsizləşmiş hala gələn maliyyə aktivləri üçün faiz gəliri maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsinin tətbiqi ilə hesablanır. Aktiv artıq kredit üzrə dəyərsizləşmiş olmadıqda, faiz gəlirinin hesablanması yenidən ümumi balans dəyəri əsasında aparılır.

**Təqdimat**

Mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatda effektiv faiz metodu ilə hesablanan faiz gəliri amortizasiya olunmuş dəyər üzrə ölçülən maliyyə aktivləri üzrə faizləri də əhatə edir.

**Digər gəlir və xərclərin tanınması**

Digər gəlir və xərclər hesablama prinsipi əsasında tanınır.

**İşçilərə verilən müavinətlər**

Əmək haqqı, maaşlar, Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fonduna və sosial sığorta fondlarına ödənişlər, ödənişli illik məzuniyyət və xəstəlik vərəqələri, mükafatlar və qeyri-pul müavinətləri (məsələn, səhiyyə xidmətləri, uşaq bağçası xidmətləri və qida) Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildiyi ildə hesablanır.

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər maliyyə hesabatlarında tanınmır. Onlar maliyyə hesabatlarının qeydlərində açıqlanır, yalnız iqtisadi faydaları özündə əks etdirən resursların çıxışı ehtimalı çox aşağı (uzaq) olduqda istisna edilir.

Şərti aktivlər maliyyə hesabatlarında tanınmır, lakin iqtisadi faydaların daxil olması ehtimalı olduqda açıqlanır.

## 4. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ EHTİMALLAR VƏ MÜLAHİZƏLƏR

Cəmiyyət növbəti maliyyə ili ərzində maliyyə hesabatları və aktiv və öhdəliklərin balans dəyərində tanınan məbləğə təsir edən təxminlər və fərziyyələr irəli sürür. Təxminlər və mühakimələr davamlı olaraq qiymətləndirilir və müəyyən şərtlər əsasında ağlabatan olması ehtimal edilən gələcək hadisələr üzrə ehtimallar daxil olmaqla, rəhbərliyin təcrübəsi və digər faktorlara əsaslanır.

Faktiki nəticələr bu təxminlərdən fərqli ola bilər. Təxminlərdən əlavə rəhbərlik, həmçinin, mühasibat uçotu siyasətlərinin tətbiqi prosesində müəyyən mühakimələr irəli sürür. Növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərində mühüm dəyişikliyə səbəb olan maliyyə hesabatları və qiymətləndirmələrində tanınan məbləğ üzərində ciddi təsirə malik mühakimələrə aşağıdakılar daxildir:

**Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi**

Cəmiyyətin bir sıra mühasibat siyasətləri və açıqlamaları həm maliyyə, həm də qeyri-maliyyə aktiv və öhdəlikləri üzrə ədalətli dəyərin ölçülməsini tələb edir.

Cəmiyyət ədalətli dəyərin ölçülməsi ilə bağlı nəzarət çərçivəsi müəyyən etmişdir. Aktivin və ya öhdəliyin ədalətli dəyəri ölçülərkən, Cəmiyyət mümkün olduğu qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər qiymətləndirmə üsullarında istifadə olunan giriş məlumatlarına əsasən aşağıdakı kimi iyerarxiya səviyyələrinə bölünür:

- Səviyyə 1: eyni aktiv və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunmuş (düzəliş edilməmiş) qiymətlər;
- Səviyyə 2: Səviyyə 1-ə daxil edilən kotirovka qiymətlərindən başqa, aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər kimi) və ya dolayı (yəni qiymətlərdən törədilmiş) müşahidə edilə bilən giriş məlumatları;
- Səviyyə 3: aktiv və ya öhdəlik üzrə bazarda müşahidə edilə bilən məlumatlara əsaslanmayan (müşahidə olunmayan) giriş məlumatları.

Əgər aktiv və ya öhdəliyin ədalətli dəyərinin ölçülməsində istifadə olunan giriş məlumatları ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrinə aid edilə bilərsə, onda ədalətli dəyərin ölçülməsi bütövlükdə, həmin ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatına uyğun səviyyədə təsnif edilir.

**Ehtimal Olunan Kredit Zərəri (EOKZ) üzrə ehtiyatın ölçülməsi**

EOKZ-nin ölçülməsi metodologiya, modellər və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirən mühüm bir təxmindir. EOKZ-nin ölçülməsi üzrə metodologiya 21 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyat üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ") və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makroiqtisadi ssenari modelləri. Cəmiyyət, müntəzəm olaraq, ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ-nin ölçülməsi üzrə ətraflı məlumatlar 21 saylı Qeyddə açıqlanır.

31 dekabr 2025-ci il tarixinə Cəmiyyət 626,046 AZN məbləğində gözlənilən kredit itkiləri üzrə ehtiyat tanımışdır (31 dekabr 2024: 19,366 AZN), (bax: 9 saylı Qeyd).

**Kredit riskində əhəmiyyətli artım**

Kredit riskində əhəmiyyətli artımın olub-olmadığını müəyyən etmək üçün Cəmiyyət hesabat tarixinə maliyyə aləti üzrə defolt riskini, ilkin tanınma tarixində mövcud olan defolt riski ilə müqayisə edir. Qiymətləndirmə hesabat dövrünün sonunda müəyyən kredit riski səviyyəsinə çatmaqdan daha çox, kredit riskində nisbi artımı nəzərə alır. Cəmiyyət həddindən artıq xərc və səylər tələb etmədən əldə edilə bilən bütün əsaslandırılmış və dəstəklənə bilən irəliyə yönəlik məlumatları nəzərə alır; buraya konkret müştəri portfellərinin davranış xüsusiyyətləri də daxil olmaqla müxtəlif amillər daxildir. Cəmiyyət gecikmədən əvvəl kredit riskində artımı göstərən davranış göstəricilərini müəyyən edir və müvafiq irəliyə yönəlik məlumatları ya fərdi alət səviyyəsində, ya da portfel səviyyəsində kredit riski qiymətləndirilməsinə daxil edir (bax: Qeyd 21).

**Cari vergilər**

Vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə açıqdır və tez-tez dəyişir. Bundan əlavə, vergi orqanlarının qanunvericiliyi Cəmiyyətin əməliyyat və fəaliyyətinə tətbiq edərkən verdiyi şərhlər rəhbərliyin şərhləri ilə üst-üstə düşməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları mübahisələndirə bilər və Cəmiyyətə əlavə vergilər, cərimələr və faizlər tətbiq oluna bilər ki, bu da əhəmiyyətli ola bilər. Vergi öhdəlikləri üzrə yoxlamalar üçün dövrlər, yoxlama ilindən əvvəlki üç təqvim ilini əhatə edən müddət ərzində açıq qalır. Müəyyən hallarda yoxlamalar daha uzun dövrləri də əhatə edə bilər.

**Təxirə salınmış vergi aktivinin tanınması**

Xalis təxirə salınmış gəlir vergisi aktivi gələcəkdə vergiyə cəlb olunan mənfəətdən çıxılmaqla geri alınacaq vergiləri əks etdirir və maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Təxirə salınmış gəlir vergisi aktivləri yalnız müvafiq vergi faydasının reallaşmasının ehtimal olunduğu həddə tanınır. Gələcək vergiyə cəlb olunan mənfəətin və gələcəkdə əldə olunması ehtimal olunan vergi faydalarının məbləğinin müəyyən edilməsində rəhbərlik mövcud şəraitdə məntiqli hesab edilən gələcək gəlir gözləntilərinə əsaslanaraq mülahizələr irəli sürür və təxminlər edir.

**İcarə öhdəliklərinin və istifadə hüququ aktivlərinin qiymətləndirilməsi**

16 saylı MHBS-nin tətbiqi istifadə hüququ aktivləri və icarə öhdəlikləri üzrə mülahizələrin irəli sürülməsini tələb edir. İcarə müddətinin müəyyən edilməsində Cəmiyyət uzadılma opsionlarının həyata keçirilməsi (və ya xitam opsionlarının həyata keçirilməməsi) üçün iqtisadi təşviq yaradan bütün fakt və halları nəzərə alır. Müqavilənin icarəni ehtiva edib-etmədiyinin qiymətləndirilməsi də mülahizə tələb edir. İcarə öhdəliklərinin ölçülməsi üçün istifadə olunan müvafiq diskont dərəcəsinin müəyyən edilməsi üçün təxminlər tələb olunur.

16 saylı MHBS-yə uyğun olaraq tanınmış icarə öhdəliklərinə tətbiq edilən çəkili orta artan borclanma faiz dərəcəsi 31 dekabr 2025 və 31 dekabr 2024 tarixlərinə 13% təşkil etmişdir.

## 5. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cəmiyyət MUBSŞ tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə bütün hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

2023-cü ilin avqust ayında MUBSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə müəssisənin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 saylı MUBS**-a düzəliş dərc etmişdir. Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir. Düzəlişlər, erkən tətbiqetmə seçimi mövcud olmaqla, 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartlar Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

## 6. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən düzəlişlər, standartlar və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət qüvvəyə mindiyi təqdirdə bu yeni və düzəliş edilmiş standartlar və şərhləri qəbul etməyi nəzərdə tutur.

30 may 2024-cü il tarixində MUBSŞ maliyyə alətlərinin təsnifatı və qiymətləndirilməsi ilə bağlı **9 saylı MHBS "Maliyyə Alətləri" və 7 saylı MHBS "Maliyyə Alətləri: Məlumatların Açıqlanması"**na düzəlişlər dərc etmişdir. Əsas dəyişikliklərə aşağıdakılar daxildir:

- Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması: müəyyən edilmiş meyarlara əsasən elektron köçürmə yolu ilə ödənilmiş borcların, ödəniş tarixindən əvvəl yerinə yetirilmiş öhdəliklər hesab edilməsinə imkan verir.
- Maliyyə aktivlərinin təsnifatı: əsas icarə müqavilələrinin şərtlərinin qiymətləndirilməsi üçün tövsiyələr verir, tələb əsaslı olmayan xüsusiyyətləri dəqiqləşdirir və müqavilə ilə əlaqəli alətlərin xüsusiyyətlərinə aydınlıq gətirir.
- Açıqlamalar: DMGVƏD vasitəsilə ədalətli dəyərdə ölçülən kapital investisiyaları və pul vəsaitlərinin hərəkətinə təsir edən şərti öhdəliklər üçün yeni tələblər müəyyən edir.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan hesabat dövrlərinə şamil edilir, həm retrospektiv, həm də erkən tətbiqinə icazə verilir.

MUBSŞ 2024-cü ilin may ayında təbiət amillərindən asılı elektrik enerjisinə istinad edən müqavilələr üzrə mühasibat uçotu və açıqlama tələblərini əhatə edən 9 saylı MHBS və 7 saylı MHBS-yə düzəlişlər dərc etmişdir. Düzəlişlər bu tipli müqavilələrin müəssisənin öhdəlikləri, pul vəsaitlərinin hərəkəti və likvidlik riskinə təsirlərinin şəffaflığını artırır. Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur və erkən tətbiqinə icazə verilir.

18 iyul 2024-cü il tarixində MUBSŞ **"MHBS Mühasibat Uçotu Standartlarının İllik Təkmilləşdirilməsi – 11-ci Cild"**i dərc etmişdir.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

1 saylı MHBS: Standartları ilk dəfə tətbiq edən müəssisələr üçün heçinq uçotu ilə bağlı izahlar;
7 saylı MHBS: Tanınmanın dayandırılması zamanı gəlir və ya zərərlərin tanınması ilə bağlı tövsiyələr;
7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat dəyəri arasında təxirə salınmış fərqlər üzrə təkmilləşdirilmiş açıqlamalar;
7 saylı MHBS: Təqdimat və kredit riskinin açıqlanmasına dair təkmilləşdirmələr;
9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahlar;
9 saylı MHBS: Əməliyyat dəyərinin müəyyən olunmasına dair əlavə təlimat;
10 saylı MHBS: "De-fakto agent"inin müəyyən olunması üzrə açıqlamalar;
7 saylı BAS: Xərc metodu ilə əlaqədar təkmilləşdirmələr.

Düzəlişlər 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrlərinə şamil olunur.

9 aprel 2024-cü il tarixində MUBSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq "Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması" adlı 18 saylı MHBS yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də "əməliyyat mənfəət və ya zərəri" ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə yardım edəcək. 18 saylı MHBS-yə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- mənfəət və ya zərər hesabatının strukturu;
- müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət tədbirləri); və
- ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı MUBS-u əvəz edəcək; 1 saylı MUBS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin "əməliyyat mənfəəti və ya zərər" hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında MUBSŞ tərəfindən **19 saylı "İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması"** adlı yeni standartı dərc edilmişdir. bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olduqda;
- ictimai hesabatlılığı olmadıqda; və
- onun son və ya aralıq ana müəssisəsi ictimai istifadə üçün mövcud olan və MHBS Mühasibat Uçotu Standartlarına uyğun konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırlayır

Yeni standart 1 yanvar 2027-ci il tarixinə və ya ondan sonrakı hesabat dövrlərinə şamil olunur, erkən tətbiqinə icazə verilir.

2025-ci ilin avqust ayında MBUSŞ **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" (Hiperinflyasiyalı Təqdimat Valyutasına Çevrilmə) adlı 21 saylı MUBS**-a düzəliş dərc etmişdir. Bu düzəlişlər müəssisənin hiperinflyasiyalı mühitdə təqdimat valyutasını necə müəyyən etdiyini və valyutanın mübadilə qabiliyyəti olmadığı hallarda xarici valyuta əməliyyatlarını necə ölçdüyünü aydınlaşdırır. Qiymətləndirmə tarixində başqa bir valyutaya mübadilə olunmayan xarici valyutada əməliyyat və ya fəaliyyəti olan müəssisələr bu düzəlişlərin təsirinə məruz qalır. Düzəlişlər 1 yanvar 2027-ci il və ya bu tarixdən sonra başlayan hesabat dövrləri üçün qüvvəyə minir və erkən tətbiqinə icazə verilir.

Beynəlxalq Dayanıqlılıq Standartları Şurası (BDSŞ) 26 iyun 2023-cü il tarixində **MHBS S1 "Dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının açıqlanması üzrə ümumi tələblər" və MHBS S2** "İqlim ilə əlaqədar açıqlamalar" adlı ilk iki MHBS Dayanıqlılığın Açıqlanması Standartlarını dərc etmişdir. Standartlar müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı əhəmiyyətli məlumatların açıqlanması üçün tələblərdən ibarətdir.

MHBS S1 müəssisənin dayanıqlılıq ilə əlaqədar riskləri və imkanları ilə bağlı məlumatların açıqlanması üzrə ümumi tələbləri müəyyən edir. MHBS S1 müəssisə tərəfindən dayanıqlılıq ilə əlaqədar maliyyə məlumatlarının hazırlanması və təqdim olunması qaydalarını nəzərdə tutur. Standart açıqlamaların məzmunu və təqdimatı ilə bağlı ümumi tələbləri əks etdirir, standarta əsasən açıqlanan məlumat müəssisə üçün ehtiyat təmin edən maliyyə hesabatının ilkin istifadəçiləri üçün faydalı olmalıdır.

MHBS S2 ümumi məqsədli maliyyə hesabatlarının ilkin istifadəçiləri üçün faydalı hesab olunan iqlim ilə əlaqədar risk və imkanlar haqqında məlumatların müəyyən olunması, qiymətləndirilməsi və açıqlanması üçün tələbləri müəyyən edir.

Hər iki standart 1 yanvar 2024-cü il tarixindən etibarən başlayan hesabat dövrlərinə şamil olunur. Standartların erkən tətbiqinə icazə verilir. Müəssisə MHBS S1 standartını daha erkən tətbiq etdiyi halda, həmin standartı müvafiq şəkildə açıqlamalı və eyni zamanda MHBS S2 standartını tətbiq etməlidir. BDSŞ standartlarının məcburi tətbiqi həmin standartların müvafiq qanunvericilik tərəfindən qəbul edilməsindən asılıdır. Bu, müəssisələrin standartları könüllü şəkildə (əlavə olaraq) tətbiq etmə bacarığına heç bir təsir göstərmir. Hazırkı hesabat tarixində bu standartlar müəssisənin fəaliyyət göstərdiyi yurisdiksiya tərəfindən qəbul edilməmişdir.

**"Konsolidə edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və "İnvestor və onun Assosiasiya edilmiş və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi" adlı 28 saylı MUBS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı MUBS-a edilən düzəlişlər investor, onun assosiasiya edilmiş və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin assosiasiya edilmiş və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə uçota alınmış assosiasiya edilmiş və ya birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya edilmiş və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi MUBSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilirƏksi göstərilmədiyi təqdirdə, yeni standartların və şərhlərin Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 7. YENİDƏN BƏYAN ETMƏ VƏ YENİDƏN TƏSNİFLƏŞDİRMƏLƏR

31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində Rəhbərlik 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarında müəyyən səhvlər aşkar etmiş və bəzi yenidən təsnifatlar aparmışdır.

Aşağıda təqdim olunan səhvlər retrospektiv qaydada düzəldilmişdir:

| Maliyyə vəziyyəti haqqında hesabat | Qeydlər | Daha əvvəl təqdim olunduğu kimi | Yenidən təqdim etmə/ yenidən təsnifləşdirmə məbləği | Yenidən bəyan edilmiş/ yenidən təsnifləşdirilmiş |
|---|---|---|---|---|
| | | 1 yanvar 2024-cü il | 1 yanvar 2024-cü il | 1 yanvar 2024-cü il |
| İstifadə hüququ aktivləri | (a) | - | 52,680 | 52,680 |
| İcarə öhdəliyi | (a) | - | (58,317) | (58,317) |
| Əmlak, avadanlıq və qeyri-maddi | (b) | 278,164 | 120,487 | 398,651 |
| Taxirə salınmış vergi aktivi | (c) | 39,505 | 1,129 | 40,634 |
| Bölüşdürülməmiş mənfəət | (a,b,c) | (4,319,368) | (115,979) | (4,435,347) |

| Maliyyə vəziyyəti haqqında hesabat | Qeydlər | Daha əvvəl təqdim olunduğu kimi | Yenidən təqdim etmə/ yenidən təsnifləşdirmə məbləği | Yenidən bəyan edilmiş/ yenidən təsnifləşdirilmiş |
|---|---|---|---|---|
| | | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
| İstifadə hüququ aktivləri | (d) | 52,680 | (27,572) | 25,108 |
| İcarə öhdəliyi | (d) | (58,317) | 29,252 | (29,065) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | (e) | 454,328 | 31,209 | 485,537 |
| Taxirə salınmış vergi aktivi | (f) | 50,881 | (5,907) | 44,974 |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
**31 DEKABR 2025-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)**
*(Əksi qeyd edilmədiyi halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| Mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatı | Qeydlər | Daha əvvəl təqdim olunduğu kimi | Yenidən təqdim etmə/ yenidən təsnifləşdirmə məbləği | Yenidən bəyan edilmiş/ yenidən təsnifləşdirilmiş |
|---|---|---|---|---|
| | | 31 yanvar 2024-cü il tarixində başa çatmış il üzrə | 31 yanvar 2024-cü il tarixində başa çatmış il üzrə | 31 yanvar 2024-cü il tarixində başa çatmış il üzrə |
| Faiz xərcləri | (g) | (386,631) | (5,631) | (392,262) |
| Digər gəlirlər, xalis | (h) | 37,564 | 12,687 | 50,251 |
| Mənfəət vergisi xərci | (f) | (99,984) | (5,907) | (105,891) |
| İnzibati və digər əməliyyat xərcləri | (i) | (1,795,154) | 25,833 | (1,769,321) |
| Amortizasiya xərcləri | (j) | 46,931 | 9,048 | 55,979 |
| İcarə xərcləri | (k) | 42,318 | (34,884) | 7,434 |
| Kommunal xərclər | (l) | 35,409 | (26,557) | 8,852 |
| İnstitusional inkişaf xərcləri | (m) | 17,101 | (17,101) | - |
| Peşəkar xidmət haqları | (n) | 15,340 | (15,340) | - |
| Ofis ləvazimatları | (o) | 14,607 | (14,607) | - |
| Təmir və texniki xidmət xərcləri | (p) | 8,986 | (3,429) | 5,557 |
| Mənfəət vergisindən başqa vergilər | (q) | 2,865 | 131 | 2,996 |
| Digər xərclər | (r) | 27,181 | (20,304) | 6,877 |
| Peşəkar haqlar | (s) | - | 62,073 | 62,073 |
| Çap xərcləri | (o) | - | 14,607 | 14,607 |
| Qida xərcləri | (m) | - | 17,101 | 17,101 |
| Yanacaq xərcləri | (p) | - | 3,429 | 3,429 |

a) 16 saylı MHBS-nin tətbiqi ilə bağlı düzəlişlər;
b) əvvəlki illərin amortizasiyasının balansdan çıxarılması ilə bağlı səhvlərin düzəldilməsi;
c) 16 saylı MHBS-nin tətbiqi və əvvəlki illərin amortizasiyasının balansdan çıxarılması ilə bağlı səhvlərin düzəldilməsi;
d) 16 saylı MHBS-nin tətbiqi ilə bağlı düzəlişlər;
e) əvvəlki illərin amortizasiyasının balansdan çıxarılması ilə bağlı səhvlərin düzəldilməsi;
f) 16 saylı MHBS-nin tətbiqi və əvvəlki illərin amortizasiyasının balansdan çıxarılması ilə bağlı səhvlərin düzəldilməsi;
g) icarə öhdəliyi üzrə maliyyə xərclərinin tanınması ilə bağlı səhvlərin düzəldilməsi;
h) satış (çıxarılma) üzrə gəlirin tanınması ilə bağlı səhvlərin düzəldilməsi;
i) amortizasiya xərclərinin tanınması ilə bağlı səhvlərin düzəldilməsi;
j) istifadə hüququ aktivlərinin amortizasiya xərclərinin tanınması və əsas vəsaitlərin amortizasiyasının balansdan çıxarılması ilə bağlı səhvlərin düzəldilməsi;
k) 16 saylı MHBS ilə bağlı icarə xərcləri ilə faiz xərcləri arasında yenidən təsnifat;
l) kommunal xərclərlə digər xərclər arasında yenidən təsnifat;
m) institusional inkişaf xərcləri ilə qida xərcləri arasında yenidən təsnifat;
n) peşəkar xidmət haqları ilə peşəkar haqlar arasında yenidən təsnifat;
o) ofis ləvazimatları ilə çap xərcləri arasında yenidən təsnifat;

p) təmir və texniki xidmət xərcləri ilə yanacaq xərcləri arasında yenidən təsnifat;
q) mənfəət vergisindən başqa vergilərlə digər xərclər arasında yenidən təsnifat;
r) digər xərclər, peşəkar haqlar, kommunal xərclər və mənfəət vergisindən başqa vergilər arasında yenidən təsnifat;
s) peşəkar haqlar, digər xərclər, peşəkar xidmət haqları və kommunal xərclər arasında yenidən təsnifat.

## 8. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Banklarda olan nağd vəsaitlər | 272,812 | 122,770 |
| Kassadakı nağd pul | 1,018 | 3,889 |
| **Cəmi nağd pul və pul ekvivalentləri** | **273,830** | **126,659** |

## 9. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

| | 31 dekabr 2025 | 31 dekabr 2024 |
|---|---|---|
| Kənd təsərrüfatı sektoru | 297,226 | 186,257 |
| Ticarət sektoru | 2,159,590 | 2,095,348 |
| Xidmət və digər sektorlar | 7,484,503 | 6,041,380 |
| **Müştərilərə verilmiş kreditlər, cəmi (brutto)** | **9,941,319** | **8,322,985** |
| Çıxılsın: gözlənilən kredit itkiləri üzrə ehtiyat | (442,102) | (374,657) |
| **Müştərilərə verilmiş kreditlər, cəmi (netto)** | **9,499,217** | **7,948,328** |
| Təxirə salınmış komissiya haqqı | (232,744) | (172,932) |
| Müştərilərə verilmiş kreditlər, cəmi (netto) | 9,266,473 | 7,775,396 |

Müştərilərə verilmiş kreditlər əsasən Azərbaycan Respublikasında yerləşən müştərilərə verilir.

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə kredit kateqoriyaları üzrə ümumi balans dəyərində və müvafiq gözlənilən kredit itkilərində baş verən dəyişikliklərin təhlili aşağıdakı kimidir:

| **Ümumi balans dəyəri – bütün sektorlar** | **Mərhələ 1** | **Mərhələ 2** | **Mərhələ 3** | **Cəmi** |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə** | **7,825,114** | **101,104** | **396,767** | **8,322,985** |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | 8,474,295 | - | - | 8,474,295 |
| Hesablanmış faizlərdə dəyişikliklər | 87,940 | 4,172 | (3,423) | 88,689 |
| Digər hərəkətlər (aktivlərin geri ödənişi, aktivlərin dəyişdirilməsi və s.) | (6,999,339) | 178,073 | 1,171,891 | (5,649,375) |
| Köçürmələr mərhələ 1-ə | 59,481 | - | (59,481) | - |
| Köçürmələr mərhələ 2-ə | (17,859) | 18,380 | (521) | - |
| Köçürmələr mərhələ 3-ə | (139,754) | (7,441) | 147,195 | - |
| Bərpa olunmuş aktivlər | - | - | 91,268 | 91,268 |
| Silinmiş hesablar | - | - | - | (1,386,543) |
| **31 dekabr 2025-ci il tarixinə** | **9,289,878** | **294,288** | **357,153** | **9,941,319** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
**31 DEKABR 2025-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)**
*(Əksi qeyd edilmədiyi halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat – bütün sektorlar | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə** | **(26,695)** | **(1,244)** | **(346,718)** | **(374,657)** |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | 2,955 | - | - | 2,955 |
| Hesablanmış faizlərdə dəyişikliklər | (208) | 1,507 | 12,994 | 14,293 |
| Diskontun açılması | - | - | (1,970) | (1,970) |
| EOKZ yenidən ölçülməsi, xalis nəticə | 100,908 | (92,785) | | |
| Köçürmələr mərhələ 1-ə | 24 | - | (24) | - |
| Köçürmələr mərhələ 2-ə | (4,031) | 4,031 | - | - |
| Köçürmələr mərhələ 3-ə | (124,333) | (4,942) | 129,275 | - |
| Silinmiş hesablar | - | - | 1,386,543 | 1,386,543 |
| **31 dekabr 2025-ci il tarixinə** | **(51,380)** | **(93,433)** | **(297,289)** | **(442,102)** |

| Ümumi balans dəyəri – kənd təsərrüfatı sektoru | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə** | **176,356** | **89** | **9,812** | **186,257** |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | 259,681 | - | - | 259,681 |
| Hesablanmış faizlərdə dəyişikliklər | 2,355 | - | - | 2,355 |
| Digər hərəkətlər (aktivlərin geri ödənişi, aktivlərin dəyişdirilməsi və s.) | (148,204) | (89) | 665,686 | 517,393 |
| Köçürmələr mərhələ 1-ə | 909 | - | (909) | - |
| Köçürmələr mərhələ 2-ə | - | - | - | - |
| Köçürmələr mərhələ 3-ə | - | - | - | - |
| Bərpa olunmuş aktivlər | - | - | 25,340 | 25,340 |
| Silinmiş hesablar | - | - | (693,800) | (693,800) |
| **31 dekabr 2025-ci il tarixinə** | **291,097** | **-** | **6,129** | **297,226** |

| Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat – kənd təsərrüfatı sektoru | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə** | **(1,636)** | **(825)** | **(9,045)** | **(11,506)** |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | 792 | - | - | 792 |
| Hesablanmış faizlərdə dəyişikliklər | (15) | - | 26 | 11 |
| Diskontun açılması | - | - | - | - |
| EOKZ yenidən ölçülməsi, xalis nəticə | - | 825 | (690,908) | (690,083) |
| Köçürmələr mərhələ 1-ə | 2 | - | (2) | - |
| Köçürmələr mərhələ 2-ə | - | - | - | - |
| Köçürmələr mərhələ 3-ə | - | - | - | - |
| Bərpa olunmuş aktivlər | - | - | 693,800 | 693,800 |
| **31 dekabr 2025-ci il tarixinə** | **(857)** | **-** | **(6,129)** | **(6,986)** |

| Ümumi balans dəyəri – ticarət sektoru | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| 1 yanvar 2025-ci il tarixinə | 1,969,095 | 35,125 | 91,128 | 2,095,348 |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | 1,806,675 | - | - | 1,806,675 |
| Hesablanmış faizlərdə dəyişikliklər | 17,541 | (51) | (369) | 17,121 |
| Digər hərəkətlər (aktivlərin geri ödənişi, aktivlərin dəyişdirilməsi və s.) | (1,703,953 | (32,638) | 187,137 | (1,549,454) |
| Köçürmələr mərhələ 1-ə | 11,314 | - | (11,314) | - |
| Köçürmələr mərhələ 2-ə | (12,779) | 12,779 | - | - |
| Köçürmələr mərhələ 3-ə | (24,588) | - | 24,588 | - |
| Bərpa olunmuş aktivlər | - | - | - | - |
| Silinmiş hesablar | - | - | (210,100) | (210,100) |
| 31 dekabr 2025-ci il tarixinə | 2,063,305 | 15,215 | 81,070 | 2,159,590 |

| Ehtimal olunan kredit zərəri üzrə ehtiyat – kənd təsərrüfatı sektoru | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| 1 yanvar 2025-ci il tarixinə | (3,332) | (33) | (97,958) | (101,323) |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | 2,163 | - | - | 2,163 |
| Hesablanmış faizlərdə dəyişikliklər | (153) | 2 | 2,671 | 2,520 |
| Diskontun açılması | - | - | (434) | (434) |
| EOKZ yenidən ölçülməsi, xalis nəticə | 22,789 | (2,461) | (202,530) | (182,202) |
| Köçürmələr mərhələ 1-ə | 11 | - | (11) | - |
| Köçürmələr mərhələ 2-ə | (1,246) | 1,246 | - | - |
| Köçürmələr mərhələ 3-ə | (22,750) | - | 22,750 | - |
| Bərpa olunmuş aktivlər | - | - | 210,100 | 210,100 |
| **31 dekabr 2025-ci il tarixinə** | **(2,518)** | **(1,246)** | **(65,412)** | **(69,176)** |

| Ümumi balans dəyəri – xidmət və digər sektorlar | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| 1 yanvar 2025-ci il tarixinə | **5,679,663** | **65,890** | **295,827** | **6,041,380** |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | 6,407,939 | - | - | 6,407,939 |
| Hesablanmış faizlərdə dəyişikliklər | 68,044 | 4,223 | (3,054) | 69,213 |
| Digər hərəkətlər (aktivlərin geri ödənişi, aktivlərin dəyişdirilməsi və s.) | (5,147,182) | 210,800 | 319,068 | (4,617,314) |
| Köçürmələr mərhələ 1-ə | 47,258 | - | (47,258) | - |
| Köçürmələr mərhələ 2-ə | (5,080) | 5,601 | (521) | - |
| Köçürmələr mərhələ 3-ə | (115,166) | (7,441) | 122,607 | - |
| Bərpa olunmuş aktivlər | - | - | 65,928 | 65,928 |
| Silinmiş hesablar | - | - | (482,643) | (482,643) |
| **31 dekabr 2025-ci il tarixinə** | **6,935,476** | **279,073** | **269,954** | **7,484,503** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)
*(Əksi qeyd edilmədiyi halda, məbləğlər Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| Ehtimal olunan kredit zərəri üzrə ehtiyat – xidmət və digər sektorlar | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə** | **(21,727)** | **(386)** | **(239,715)** | **(261,828)** |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | - | - | - | - |
| Hesablanmış faizlərdə dəyişikliklər | (40) | 1,505 | 10,297 | 11,762 |
| Diskontun açılması | - | - | (1,536) | (1,536) |
| EOKZ yenidən ölçülməsi, xalis nəticə | 78,119 | (91,149) | (583,951) | (596,981) |
| Köçürmələr mərhələ 1-ə | 11 | - | (11) | - |
| Köçürmələr mərhələ 2-ə | (2,785) | 2,785 | - | - |
| Köçürmələr mərhələ 3-ə | (101,583) | (4,942) | 106,525 | - |
| Silinmiş hesablar | - | - | 482,643 | 482,643 |
| **31 dekabr 2025-ci il tarixinə** | **(48,005)** | **(92,187)** | **(225,748)** | **(365,940)** |

31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində kredit kateqoriyaları üzrə ümumi balans dəyərində və müvafiq gözlənilən kredit itkilərində (GKİ) baş verən dəyişikliklərin təhlili aşağıdakı kimidir::

| Ümumi balans dəyəri – bütün sektorlar | Mərhələ 1 | Mərhələ 2 | Mərhələ 3 | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2024-ci il tarixinə** | **8,287,285** | **42,593** | **320,461** | **8,650,339** |
| Yeni yaranmış və ya əldə edilmiş aktivlər | 10,201,300 | 90,500 | 52,200 | 10,344,000 |
| Hesablanmış faizlərdə dəyişikliklər | (23,118) | 29,735 | 27,881 | 34,498 |
| Digər hərəkətlər (aktivlərin geri ödənişi, aktivlərin dəyişdirilməsi və s.) | (11,795,225) | (46,890) | (306,548) | (12,148,663) |
